# Musiqili ritmik hərəkətlərin eşitmə pozulmaları olan uşaqların ümumi və nitq inkişafında rolu

**Bahar Əliosət qızı Mustafayeva**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
**E-mail:** mustafayeva8@gmail.com

**Rəyçilər:** dos. T.H. Ağayeva,
p.ü.f.d. M.Ş. Məlikov

**Açar sözlər:** eşitmə, nitq, oyun, musiqi, ritm, məşğələ, uşaq
**Ключевые слова:** слушание, речь, игра, музыка, ритм, обучение, ребенок
**Key words:** hearing, speech, game, music, rhythm, exercise, children

Eşitmə pozulmaları olan uşaqlar üçün xüsusi (korreksiya) ümumtəhsil məktəblərində müxtəlif tədris fənləri ilə yanaşı, musiqili ritmik məşğələlər aparılır. Bu məşğələlərdə kar və zəif eşidən şagirdlərdə musiqini dinləmək, onu qavramaq, mahnı oxumaq bacarığı, musiqinin müşayiəti ilə ritmik, ifadəli və düzgün hərəkətləri formalaşdırılır. Xüsusi ümumtəhsil məktəblərində tədris edilən musiqili ritmik məşğələlər proqrama uyğun və dərs cədvəlinə müəyyən edilmiş saatlarda, qrup-sinif formasında xüsusi avadanlıqlarla: böyükölçülü güzgülər, piano, musiqi alətləri, səsli oyuncaqlar, müxtəlif ölçülü top və s. ilə təchiz edilmiş otaqda aparılır.

Musiqili ritmik məşğələlərin aparılmasının əsas məqsədi kar və zəif eşidən uşaqlarda nitqli və nitqsiz səslərin xüsusiyyətlərini: onların tembr, güc, ucalığını sürətini fərqləndirmək, artikulyasiya və ümumi motorikanı inkişaf etdirməkdir. Musiqili ritmik məşğələlərin məzmun və formaları eşitməsi pozulmuş uşaqlardakı nitq çatışmazlıqlarının aradan qaldırması üzrə qarşıya qoyulan məqsədə görə müxtəlif olur. Təşkil edilən məşğələlərdə istifadə edilən əyani vasitələr maraqlı və rəngarəng tərtibatlı olmalıdır. Məşğələlərdə uşaqlarda musiqi bilikləri ilə yanaşı, həm də şəxsiyyət keyfiyyətləri formalaşır. Uşaqlar daha diqqətli və məsuliyyətli olurlar.

Musiqili ritmik məşğələlər uşaqlarda iradə, təşəbbüskarlıq, hərəkətləri planlaşdırmağı tərbiyə edir. Davranışı formalaşdırır. Hərəkətlərin musiqiyə müvafiq məkan və zaman çərçivəsində təşkili isə psixi proseslərə, xüsusilə də, oyanma və ləngiməyə müsbət təsir göstərib onların keçiriciliyini normallaşdırır, eşitmə diqqəti və qavrayışını inkişaf etdirir.

Bundan əlavə, musiqili ritmik məşğələlər uşaqlarda əqli fəal lığın artmasına, şəxsiyyətin əxlaqi-estetik tərəflərinin tərbiyəsinə, ətraf aləmi dərk edərək qavramasına, diqqət, hafizə, təfəkkür və yaradıcı təxəyyülün formalaşmasına kömək edir, uşaqlara sevinc, müsbət əhval-ruhiyyə aşılayır. Musiqili ritmik məşğələlər eyni zamanda eşitməsi pozulmuş uşaqlarda bədii-estetik zövqü tərbiyə edir, hərəkətlərin təkmilləşməsinə, nitqin ifadəliliyinin inkişafına, parlaq yaradıcı fanta ziyanın formalaşmasına kömək edir. Bu oyunlar həm də eşitməsi pozulmuş uşaqlar da sensor fəaliyyəti yaxşılaşdırır, musiqi janrlarını, musiqi səslərini, musiqi vasitə və alətlərini fərqləndirməyi öyrədir.

Məşğələlərdə tələffüz, lüğət, nitqin qrammatik quruluşu, onun intonasiya, melodiklik, temp və rəvanlığının inkişafı və avtomatlaşdırılması üzrə xüsusi, məqsədəyönlü iş aparılır.

Eşitmə pozulmaları olan uşaqlara musiqili-ritmik hərəkətlərin təliminə müasir yanaşma musiqinin köməyi ilə kar və zəif eşidən uşaqlarda düzgün tənəffus, səs və səs tələffuzu, nitqlə hərəkət tempinin koordinasiyasının inkişaf etdirilməsini tələb edir. Belə ki, sadə mahnı - ritm əsaslı musiqi və rəqs melodiyaları uşaqlara öz bədənini idarə etmək, musiqinin müşayiəti ilə

hərəkətlərin ifadliliyini, icra edilən hərəkətlərin temp və ritmini musiqinin temp-ritminə uyğunlaşdırmaq bacarığını inkişaf etdirməyə kömək edir. Musiqili ritmik məşğələlərdə digər əyləncəli musiqili oyunlardan müxtəlif fəaliyyət növlərində də istifadə edilir. Musiqili ritmik məşğələlərdə istifadə olunan didaktik materiallara mahnılar, instrumental əsərlər, musiqi alətləri, musiqili oyuncaq dəstləri, maqnitofon, diafilm və s. daxildir

Eşitmə pozulmaları olan uşaqlar üçün söz və musiqi ilə müşayiət edilən nitqləndirilmiş mutəhərrik oyun kimi tanınan "fonetik ritmika" xüsusi məna kəsb edir.

Fonetik ritmikadan istifadə edərək bu məşğələlərlə, xüsusilə kar uşaqlarda səs tələffüzü, nitqin prosodik tərəfinin inkişafı və avtomatlaşdırılması həyata keçirilir. Fonetik ritmika zamanı uşaqlar top, lent, bayraqcıq və halqaların müşayiəti ilə ayrı-ayrı səslərin tələffüz vərdişlərini möhkəmləndirir, sözlü materialı mənimsəyirlər. Məsələn: ibtidai sinif şagirdləri fonetik ritmika məşğələsində uçan təyyarəni qollarını yana açaraq u-u-u tənəffüs və yenidən u-u-u; milçəyi z-z-z; qollarını dirsəkdən büküb dairəvi hərəkət etdirib ş-ş-ş, çux-çux-çux..., vaqonları: tak-tak-tak deməklə qatarı yamsılayır bununla da səslərin tələffüzünü möhkəmləndirirlər.

Fonetik ritmika məşğələlərində həmçinin uşaqlar nitqin müşayiətedici və əksetdirici formalarına da yiyələnirlər. Uşaqlar icra etdikləri hərəkətləri şer parçaları və ya öyrəndikləri yanıltmacalarla müşayiət edir, müəllimin nitqini onun ardınca əks etdirməklə yamsılayırlar. Məşğələ zamanı müəllim öncədən uşaqlara oyun qaydalarını izah etdir, sonra təyin etdiyi aparıcı ilə birlikdə mətndəki sözləri deyir, uşaqlar isə hər hansı bir hərəkəti yerinə yetirirlər. Loqoped aparıcıları növbə ilə dəyişməklə hər bir uşaqla birlikdə oyunun sözlu materialını təkrar edirlər.

Oyun prosesində loqoped uşaqların davranışına nəzarət edir və lazım gəldikdə onu tənzimləyir. Uşaqlar oyun qaydalarına riayət etməklə öz fəallıqlarını artırır və sözlu materialın vasitəsi ilə düzgün və səlis nitq vərdişi qazanırlar. Sonralar bu oyun və çalışmalar nitqli idman və fəaliyyətin digər növləri ilə birgə keçirilə bilər. Bütün bunlar isə öz növbəsində eşitməsi pozulmuş uşaqlarda nitqin, nitq motorikasının inkişafına müsbət təsir göstərir.

Musiqili ritmik oyunlar xüsusilə kar uşaqların nitq inkişafında xüsusi rol oynayır. Onlarda böyük və kiçik motorika, səs tələffüzü, lüğət, qrammatika, intonasiya, vurğu, melodiklik inkişaf etdirilir. Bu məşğələlərdə müxtəlif fəaliyyət növlərindən istifadə edilməklə digər əyləncəli musiqili oyunlar da keçirilə bilər. Musiqili ritmik məşğələlərdə kar uşaqlar müxtəlif kompozisiyalı musiqiləri dinləyir, xorla mahnılar oxunur və onun sədaları altında müxtəlif ritmik hərəkətləri yerinə yetirirlər. Kiçik yaşlı eşitmə pozulması olan uşaqlarla iş zamanı xüsusi yeri kiçik həcmli nəğmələri ritmik hərəkətlərlə müşayiət etməklə xorla oxunması tutur. Mahnıların belə oxunması düzgün nitq vərdişlərinin, ritm və sürət bacarıqlarının qazanılmasına, möhkəmlənməsinə, öz çatışmazlığına diqqət cəmlənməsinin aradan qaldırılmasına, şən əhval-ruhiyyənin yaradılmasına kömək edir. Təlim prosesində gimnastik və rəqs hərəkətlərinin köməyi ilə şagirdlərdə əzələ tonusunun tənzimlənməsi, düzgün qamət vərdişi formalaşır və inkişaf edir. Uşaqlar məşğələlərdə yeriş, qaçış, hoppanma hərəkətlərinin müxtəlif növlərini mənimsəyir, xalq, klassik, müasir musiqi və rəqslərin xarakterini, sadə kompozisiyaları öyrənir və musiqi işarəsinə, yaxud sözlü təlimata müvafiq tez, cəld və dəqiq reaksiyaların inkişafına nail olurlar.

Eşitmə pozulmaları olan uşaqlar üçün xüsusi internat məktəblərində musiqili ritmik məşğələlər siniflər üzrə tədris proqramına uyğun təlim edilir. Məsələn, birin ci sinif şagirdlərində musiqinin müşayiəti ilə sadə yeriş, qaçış, bir hərəkətdən digərinə keçidi, çox da çətin olmayan rəqs elementlərini yerinə yetirmək, hərəkətləri musiqi ritminə müvafiq yavaş və tez icra et-

mək, göstərilmiş istiqamətdə məkanda səmtləşmə, ikinci sinifdə musiqi əsərlərini dinləmək, nitqli və nitqsiz səsləri, musiqi alətlərinin səslərini fərqləndirmək, musiqinin müşayiəti və müəllimin komanda sı ilə sadə gimnasika və rəqs hərəkətləri yerinə yetirmək və ya dayandırmaq, üçüncü sinifdə səs, nəfəs və səs tələffüzü üzrə işi musiqi və hərəkətlərin müşayiəti ilə icra etmək öyrədilir. Beləliklə də, musiqili ritmik məşğələlər eşitmə pozulması olan uşaqların hərtərəfli inkişafında, eşitmə funksiyasının itirilməsi ilə bağlı özünü göstərən nitq, hərəkət və psixi inkişaf çatışmazlıqlarının aradan qaldırılmasında müstəsna rol oynayır.

**Məqalənin aktuallığı**. Xüsusi ümumtəhsil məktəblərində eşitmə problemli uşaqların musiqili ritmik məşğələləri proqrama uyğun və dərs cədvəlində müəyyən edilmiş saatlarda, qrup şəklində xüsusi avadanlıqlarla təchiz edilir. Musuqili ritmik məşğələni təşkil etməkdə əsas məqsəd kar və zəif eşidən uşaqların nitqli və nitqsiz (ətraf küyləri) səsləri qavraya bilməsi və səsin xüsusiyyətlərini diferensiasiya edə bilməsi və yadda saxlamasıdır. Musiqili ritmik dərslər öz gedişatında idrak prosesləri olan duyğu, diqqət, hafizə, qavramanın güclənməsinə və s. də dəstək olur. Məqalə də bu kimi əhəmiyyətli problemdən bəhs etdiyindən onu aktual dəyərləndirməliyik.

**Məqalənin elmi yeniliyi.** Məqalədə musiqili ritmik məşğələlərin aparılmasının əsas məqsədləri, məzmun və formaları göstərilir, kar və zəif eşidən uşaqlarda nitqli və nitqsiz səslərin xüsusiyyətləri sadalanır. Eyni zamanda, musiqili ritmik oyunların, xüsusilə kar uşaqların nitq inkişafında rolu qeyd edilir, bu məşğələlərdə müxtəlif fəaliyyət növlərindən istifadə olunmaqla, digər əyləncəli musiqili oyunlar haqqında söhbət açılır.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən orta ixtisas və xüsusi ümumtəhsil məktəblərinin müəllimləri, tələbə və magistrantlar istifadə edə bilərlər.

## Ədəbiyyat

1. Ağayeva T.H. Eşitmə pozğunluqlarının psixokorreksiyası. Bakı, 2015.
2. Сурдопедагогика / под ред. Речицкой Е.Г. М., 2004.
3. Яхнина Е.З. Методика музыкально-ритмических занятий с детьми, имеющими нарушения слуха: Учеб. пособие для студ. вузов. М.: ВЛАДОС, 2003.
4. Яшунская Г.И. Музыкальное воспитание глухих дошкольников: Пособие для муз. руководителя спец. дет. Сада (Из опыта работы). М.: Просвещение, 1977.

**Б.А. Мустафаева**

## Роль музыкально - ритмических движений в общем развитии и развитии речи у детей со слуховыми нарушениями

## Резюме

В специальных общеобразовательных школах музыкально - ритмические занятия детей со слуховыми проблемами снабжаются специальным оборудованием: большими зеркалами, пианино, другими музыкальными инструментами, звуковыми игрушками и др. согласно программе и расписания уроков в определённое время, в групповом порядке. Основная цель организации музыкально - ритмических занятий - это усвоение и запоминание речевых и неречевых звуков и дифференциация их свойства: - тембр, сила, высота и скорость звука глухими и тугослушащими детьми. Музыкально - ритмические

занятия способствуют развитию процессов осознания - чувства, внимания, памяти и усваивания.

Музыкально - ритмические занятия играют существенную роль в формировании у детей нравственно - эстетического воспитания и в развитии их как личность. Музыка помогает детям в формировании воли и стойкости, в активизации в групповой деятельности, инициативности. Кроме того, музыкальная ритмика даёт толчок формированию навыков большой моторики, развитию умения координации, способствует увеличению физической активности.

Способствующая развитию просадической части речи музыкальная ритмика, так же даёт толчок увеличению выразительности речи с помощью мелодии.

**B.A. Mustafayeva**

## The role of musical rhythmic movements in the general and speech development of children with hearing impairment

## Summary

Musical rhythmic lessons for children with hearing impairments in special secondary schools are carried out in accordance with the program and in the hours specified in the lesson schedule, as a group with special equipment's: large mirrors, piano, musical instruments, sound toys, etc. are supplied. The main purpose of musical-rhythmic training is to help deaf and hard hearing children to perceive speech and non-speech sounds (ambient noise) and to differentiate and remember the characteristics of sound: tempo, power, pitch and speed. Music-rhythmic lessons also support the strengthening of emotions, attention, memory, and perception, which are cognitive processes.

Musical-rhythmic training plays an important role in the formation of moral and aesthetic education in children, in the development of the child as a person. Music activates initiative, group activity in children, helps to form will and determination. In addition, musical-rhythmic stimulates the formation of great motor skills, the development of coordination skills. Stimulates physical activity.

Musical rhythm, which helps to develop the prosodic side of speech, also helps to increase the expressiveness of speech with the help of melodies.

**Redaksiyaya daxil olub:** 03.02.2021